# Doğru seçim

**7 fevral 2024-cü il tarixi xalqımızın yaddaşında əbədi olaraq qalacaq. Çünki həmin gün müstəqillik qazandıqdan sonra xalqımız tarixində ilk dəfə olaraq ərazi bütövlüyünün tam bərpa edildiyi şəraitdə dövlət başçısını, Liderini seçdi. Həmin gün xalqımız növbəti dəfə düzgün seçimini edərək qalib xalqın qalib Lideri olan Prezident İlham Əliyevə səs verdi.**

Dövlət başçısı fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində çıxışı zamanı görülmüş və gələcəkdə görüləcək işlərdən ətraflı danışdı. Xalqımız və ölkəmiz üçün yeni dövrün başlandığını nəzərə çatdıran Azərbaycan Prezidenti dedi: "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir".

Bu gün böyük fəxr və iftixarla deyə bilərik ki, Prezident İlham Əliyev ötən 100 gün ərzində dövlət başçısı kimi fəaliyyətində Ulu Öndər Heydər Əliyevin siyasi kursuna sadiqliyini bir daha nümayiş etdirdi. Ötən qısa müddət ərzində ölkəmizin hərtərəfli inkişafında mühim uğurlar qazanılmış, bütün sahələrdə həyata keçirilən islahatlar sürətləndirilmişdir. İşğaldan azad olunmuş ərazilərdə aparılan böyük bərpa və quruculuq işləri daha geniş vüsət almışdır.

Prezident İlham Əliyevin 100 gün ərzində gördüyü böyük işlər, müxtəlif ölkələrə etdiyi səfərlər, dövlət və hökumət başçıları ilə görüşləri, yerli və xarici jurnalistlərə verdiyi müsahibələr, işğaldan azad edilmiş ərazilərdə bünövrəsini qoyduğu müxtəlif təyinatlı obyektlər bu 100 günün qısa siyahısıdır. Bu müddət ərzində Prezident Özbəkistanın, Qazaxıstanın, Qırğızıstanın və Belarusun dövlət başçıları ilə işğaldan azad edlmiş ərazilərə səfərlər etmişdir. Bu səfərlər zamanı dövlətimizin başçısı şəhər və kəndlərimizdə görülən işlər barədə dost ölkələrin rəhbərlərini ətraflı məlumatlandırmış, görülmüş və görüləcək işlərdən danışmışdır. Bu səfərlər zamanı neçə-neçə yaşayış məntəqəsinin, təhsil ocağının və başqa həyat əhəmiyyətli müəssisələrin bünövrəsi qoyulmuşdur.

Azərbaycanın və onun xalqının taleyinə görə məsuliyyət cənab İlham Əliyevin üzərinə cavan yaşlarından düşmüşdür. İlk dəfə Azərbaycan xalqının yekdil dəstəyi ilə Prezident seçiləndə onun 42 yaşı vardı. Müasir dünya tarixində araşdırılma aparsaq, bu yaşda olan dövlət başçısına nadir hallarda rast gəlmək mümkündür. Prezident İlham Əliyev əsas vəzifəsini doğma xalqına, Vətəninə xidmətdə görür və bütün məmurlardan da təkidlə bunu tələb edir. Dövlət başçısının yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onu narahat edən qayğılar dayanır. Prezidenti də xalqa ən çox sevdirən, ən çox rəğbət qazandıran amillərdən biri və birincisi də budur. Elə buna görə də xalq öz Liderinə bütün zamanlarda böyük dəstək göstərib və göstərməkdə də davam edir.

Uzun illərin aparılan hərtərəfli müşahidələri onu göstərir ki, Prezident İlham Əliyev şəxsi xidmətlərini qabartmağı xoşlamır. Azərbaycan xalqı 2003-cü ildə çox müdrik seçim edərək, gələcək taleyini Ulu Öndərin siyasi varisi İlham Əliyevə etibar etdi. Sözsüz ki, bu seçim Heydər Əliyev kursunun uğuru ilə yanaşı, onun varisinə olan yüksək inam və etimaddan qaynaqlanırdı. Arxada qalmış zaman bir daha sübut etdi ki, Azərbaycan xalqı bu seçimi ilə çox müdrik addım atıb.

Prezident İlham Əliyev bu gün yüksək tribunalardan ikili standartları çəkinmədən tənqid edir, Azərbaycan xalqının milli maraqlarını qətiyyət və cəsarətlə qoruyur. Məhz qalib xalqın qalib Liderinin qətiyyətinin, iradəsinin nəticəsidir ki, ən ağır vəziyyətlərdə belə Azərbaycan heç kimin qarşısında baş əymir, sözünü cəsarətlə deyir. Buna görə də Azərbaycan dünyada söz sahibinə çevrilib. Prezident İlham Əliyev qətiyyəti və sarsılmaz iradəsi ilə həssas regionda yerləşən Azərbaycanı təhlükəsizlik adası, müasir iqtisadiyyata malik ölkə səviyyəsinə qaldırıb. Onun həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizdə sabitlik hökm sürür.

İnamla deyə bilərik ki, bu gün Azərbaycan xalqı tarixinin ən şərəfli və qürurverici günlərini yaşayır. İftixarla deyə bilərik ki, biz qalib xalqın övladlarıyıq. Qalib xalqın övladı olmaq isə şərəfdir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan .-2024.- 24 may, № 108.- S.13.